# Həyat verdiyi obrazlarda yaşayır



8 noyabr görkəmli teatr və kino aktrisası, ictimai xadim, Dövlət mükafatı laureatı, Xalq artisti Amaliya Pənahovanın (1945-2018) anım günü, vəfatının beşinci ildönümüdür.

A.Pənahova 1962-1966-cı illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsində (Adil İsgəndərovun kursu) təhsil alıb. Akademik Milli Dram Teatrının səhnəsində ilk dəfə çıxış etdiyi İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" tamaşasında Nargilə obrazı ilə tanınmağa başlayıb. Aktrisa daha sonra Nərmin ("Unuda bilmirəm"), Şahnaz ("Mahnı dağlarda qaldı"), Nurcahan ("Mənim günahım"), Təhminə ("Təhminə və Zaur"), Xurşidbanu Natəvan ("Xurşidbanu Natəvan") və s. tamaşalarda məharətlə canlandırdığı obrazlarla tamaşaçıların rəğbətini qazanıb.

Sənətkarın 1992-ci ildə yaratdığı Bakı Bələdiyyə Teatrında "Ölülər", "Nadir şah", "İnsan və iblis", "Mənim Ərdəbilim", "Dəli Domrul", "Dönüş" və s. tamaşalar paytaxt teatrsevərlərinin ixtiyarına verilib.

A.Pənahova bacarıqlı rejissor kimi də özünü sınayıb, 12 televiziya və teatr tamaşasının quruluşçu rejissoru olub.

Aktrisa 30-a yaxın filmdə ("Qərib cinlər diyarında", "Babək", "Həyat bizi sınayır", "Xatirələr sahili", "Səmt küləyi", "Mezozoy əhvalatı", "Gözlə məni, "Mən mahnı bəstələyirəm" və s.) lirik-psixoloji ekran personajları yaradıb. O, həmçinin bir sıra filmlərin səsləndirilməsində iştirak edib.

Mədəniyyət .- 2023.- 8 noyabr, № 83.- S.1.